**Əzizağa Əlizadə**

# MƏNİM TANRI FİKRİM

qanun nəşriyyatı

**Əzizağa Əlizadə. Mənim Tanrı fikrim**
Bakı, Qanun Nəşriyyatı, 2025, 136 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 27.03.2025

| | |
|---|---|
| Redaktor: | Vüsal Z. |
| Korrektor: | Ayşən Fərmanlı |
| Mətn dizaynı: | Gülnar Məmmədkərimli |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0686

© Qanun Nəşriyyatı, 2025
© Əzizağa Əlizadə, 2025

*Bu kitab sizi kainatın ən dərin sirrlərinə aparır. Tanrı nədir? Varlıq aləmi həqiqətən mövcuddurmu? Qara dəliklər, ölüm və doğuluş – bunların arxasında hansı həqiqət gizlənir? Hətta gözlərimizin içi niyə qalaktikanın formasına bənzəyir? Reallıqmı yalandır, yoxsa Yalan Reallıqdır? "Mənim Tanrı Fikrim" suallardan qorxmayanlar, bilinməyənin sərhədinə toxunmaq istəyənlər üçün yazılıb. Bəlkə də cavab düşündüyünüzdən daha yaxındır... Yaxud, düşündüyünüzdən daha uzaqda.*

## ÖN SÖZ

Əziz və dəyərli oxucu, rəqəmlər topluluğundan ibarət, lakin sıfıra bərabər səhifələrə xoş gəlmisiniz. Güman edirəm ki, "Mənim tanrı fikrim"i oxuduqdan sonra bəyənəcəksiniz.

Bir çoxumuza məlumdur ki, kitabların ön sözü olur və bu da onlardan biridir. Bu, mənim yazdığım ilk əsərdir. Dahi yazarların sətirləri yanında toz qədər olmasa da, ən azı nəyəsə cəhd etdim. "Niyyət haradırsa, mənzil də oradır". Gəlin, birlikdə niyyətimizi gerçək bilgiyə, həqiqət aynasına yönəldək.

Baxmayaraq ki, biz – insan adını verdiyimiz varlıqlar – Tanrını axtarır, yaxud bu mövzunun bütöv mahiyyətini anlamağa çalışırıq. "Reallıq həqiqətən reallıqdırmı?" kimi suallarla boğuşaraq, yaradıcı haqqında minlərlə fərziyyə irəli sürmüşük. İnsan zəkasının axtarışları nəticəsində Tanrı adını verdiyi mütləq mövcudiyyətə çatmağa, əslində bilmədiyi və gizlində olan informasiyanın axışına bələd olmağa çalışır.

Lakin bu kitabı elə mürəkkəblə qələmə almışam ki, onun nə qoxusu var, nə də rəngi. Bu kitabın mürəkkəbi saf düşüncənin və ağıllı uşağın fikir üslubu ilə bəzədilib. Sirr adlandırdığımız bütün şeylər əslində sirr ilə əlaqəsi olmayan, yaradılış haqqında insanın düşündüyü həmin o pərdənin arxasındakı həqiqətdir. Tanrı fikri isə bu böyüklük və kainatdakı hələ kəşf olunmamış gücdür. Ön sözün mahiyyətini ən sadə şəkildə ifadə etməli olsaydım, "Həyatın mənası nədir?" sualına "Tanrının qladiatorları" deyə cavab verərdim. İnsanlar bir-birini qınasa da, müxtəlif söhbət və müzakirələrdə insan kamalına yaraşmayan üs-

lublarla mühakimə aparsa da… Ona görə də bu düşüncə tərzini tanrı fikrində qladiatorlara yaraşdırmıram. Başqa sözlə, aslanların xasiyyətində qeyri-müəyyənlik olmaz. Əgər ariflərdənsinizsə, insanların əksəriyyətinin mağara düşüncəsində qaldığını hiss etmisiniz. Bu hal bizi, istər texnologiya və inkişaf, istərsə də kamil insan mərtəbəsi baxımından on minlərlə, bəlkə də yüz min illərlə geridə saxlamışdır. Halbuki, əslində hamımız tək bir həqiqətin davasını edirik. Lakin əksəriyyətimiz cəmiyyət olaraq ortaq məxrəcə, ortaq zehniyyətə gəlmədiyimiz üçün "şablon insan personajı ilə özümüz özümüzü geri salırıq". Həqiqət aynasına diqqətlə baxdıqda isə görürük ki, digər canlılar kimi həm ot, həm də ətlə qidalanırıq (Bu çox incə bir detaldır və yeri məhz ön sözdədir.).

Bu qələm elə bir mürəkkəblə doludur ki, əslində nə rəngi var, nə irqi. Lakin bəzən insan sanki tanrı ona qəzəb qamçısı ilə vururmuş kimi yanılmağa məhkum olur.

Hər kəsin əslində inandığı və öz içində gizlətdiyi həqiqətlər var. İnancsız biri ola bilərsiniz – alim, yazar, şair, müəllim, dahi, müdrik… Lakin heç kəs içindəki həqiqi cövhəri və özünə gizlində verdiyi sualları tamamilə gizlədə bilməz. Bura bizim dünyamız, bizim kainatımızdır. O, bizim içimizdədir, çünki biz onu yaşayırıq.

Bu yanılmanın mahiyyəti və mənim tanrı fikrimdəki yeri yalnız bir az irqçilik etməklə izah oluna bilər. Bunun üçün keçərli səbəblərim var. Soy ola bilər. Yaxud soy-kökü zati-alilərdən olmayan şəxslər belə sıfırdan özünü, zati-şahanələrini insan mərtəbəsinə qaldırmaq üçün "Mən kiməm? Nəyəm?" sualını özlərinə ürəkdən verməlidirlər. Mənim tanrı fikrim məhz onlar üçündür. Çünki insanların əksəriyyəti bütpərəstdir və sınmış bankanı – balonu,

xarab olmuş saatı, bitmiş batareyanı atmaqda belə acizlik göstərəcək qədər zehni yoxsuldurlar. İrq demişkən, bizim ən dərin düşüncələrimizdə yer alan suallar bunlardır: Görəsən, kainatın başqa nöqtələrində insanlardan başqa varlıqlar mövcuddur? Ağızdan qulağa ötürülən şablon düşüncə tərzinin yaratdığı çəmbərdə yadplanetlilər var? Tanrı nədir? O, varmı? Həqiqət nədir? Reallıq həqiqətən reallıqdırmı? Kainat yuxudur, oyundur, illüziyadır, yoxsa qurğu? Bəlkə, yalandır? Yoxsa, həqiqətən bir Tanrı var və bizi o yaradıb? Biz heç vaxt bilməyəcəyikmi o pərdənin arxasında nə var? Yoxsa düşünürük ki, insan hər şeyə bir ad verib, öyrəndiyi şeylər və qəbul etdiyi informasiyalar insan kamalının istehsalının formalaşdırdığı üslubdur? Ümumiyyətlə, Kainat adlandırdığımız və əlimizdə tək dəqiq dəlil olan maddə həqiqətdirmi? Qara dəliklər, qaranlıq enerji, yoxluq yoxdursa, onu nəyə əsasən "yoxluq" adlandırırıq? Bəlkə, yoxluq və heçlik yalnız bizim beş duyğu orqanımızla qavradığımız və adlandırdığımız şeylərdir? Bəlkə, mənim tanrı fikrimdə hər şey kimi bütün sualların cavabı da təsadüfdür?

Əziz və dəyərli oxucu, belə düşünmə ki, özbaşıma nəsə iddia edirəm. Dəqiq hiss etmədiyimi iddia etmirəm. Bilsəm belə, etməməyə çalışaram. Bu da tanrısal əxlaqın nümunəsidir. Lakin faktlara əsaslansaq, kainatın düzülüşünü matruşkaya bənzədərik. Bəzi insanlar isə sanki Tanrının qladiatorları və ya aslanları deyilmiş kimi həyata başqa elementlərlə tutunurlar. Ətdən, otdan, havadan, sudan, torpaqdan, savaşdan… Hətta kainatın mənfi-müsbət, əyri-düz, ölmək-doğulmaq kimi ziddiyyətlərinin çəmbərində belə yaşamırlar. Guya bu qanunlara tabe deyillərmiş kimi… Bu insanlar həyatdakı məqsədlərini ancaq başqa-

larını bağlamaqda, onlara səhv tutmaqda, gecə yarısı maşından enən bir qadını müxtəlif yozmalarla qaralamaqda, başqalarının həyatına burun soxaraq namusdan və qeyrətdən dəm vurmaqda görürlər. Özləri isə ciblərində pul olmadan, ağıl işlətmədən, həyatlarını inşa etmədən, şalvarlarını dar geyinib ayaqlarını və ya sinələrini təraş edən kişilərə müxtəlif adlar qoymaqla məşğuldurlar. Bu düşüncə tərzi onların çoxbilmişliklərini zirvəyə çıxarır.

Çoxbilmişlərin əzbərlədiyi boşluqlar özlərinə xoş gəlir. Hətta bəziləri kitabın adında səhv tapmağa çalışacaqlar. Bu kitabı almaqla qısa bir macəraya daxil oldunuz. Bu olduqca incə detaldır və mənim tanrı fikrimdir…

## PORTAL

Əziz və dəyərli oxucu, kitabı sona çatdırana qədər içimizdə "mən" adlandırdığımız düşməni susduraq. Unutmayın, bu kitab nə mənimdir, nə sənin, sadəcə özümüzündür.

Yaşamaq yaşayana gözəldir. Əsl düşüncənin hansı olduğu haqqında mübahisələr hələ də davam edir. Artıq düşünürəm ki, dinindən, irqindən, inancından asılı olmayaraq, hamımız birlikdə həqiqət aynasına baxmalıyıq. Bəs yaxşı, o nədir? Haradadır? Onu necə tapa bilərik? Ona hansı səbəbdən baxmalı və izlədikdən sonra necə faydalanmalıyıq? Siz bu kitabı tamamladıqda aydınlığa qovuşacaqsınız. Lakin qaranlığı özlərinə peşə seçənlər "Sən bunları haradan bilirsən?" – deyib söhbətə nöqtə qoyacaqlar. Mən isə bu tip insanların saxta gülüşlərinin və ittihamlarının alıcısıyam. Alınan işığı qaranlıqla örtmək, gizlətmək eqoistlikdir. Bir sözlə, özümüzə yaxşı baxmalıyıq. Özünə yaraşdırdığın şeyi başqasına çox görmə, yaraşdırmadığını da başqasına rəva bilmə. Bəs nəyə görə insan kamala xas gözəl tərəfini yalnız özünə saxlasın ki? Məgər biz sonsuz deyilik? Bir toxumu torpağa əkdikdə, ondan əmələ gələn bəhrədən saysız-hesabsız yeni toxumlar yaranmırmı? Yoxsa ömrümüz boyu cəmi bir dəfə yemək yeyirik? Qorxmayaq – hər kəsə çatacaq qədər həm bilgi, həm də bolluq mövcuddur. Ona görə "Portal" fəslini ön sözün yanına yerləşdirdim. Əgər belə etməsəydim, paxıllıq etmiş olardım. Məgər gizlətmək deyilmi bizi yoxsul edən amil? Yoxsa bizi zehni kasıblığa aparan, bitmə qorxusu ilə yaşamağımızdır? Narahat olmayın, hər qalaktikanın içində saysız-hesabsız enerji var. Bunu anlamamaq deyilmi bizi boşluqda saxlayan? Əslində hamımız – erkəkli, dişili – anayıq. Yəni doğulduqda kainata portaldan daxil oluruq.

Lakin bu daxilolmanı düzgün başa düşməmiş, səhv adlandırmışıq. İzahlı məntiq budur ki, bəlkə də mənim bu fikrim yüz və ya milyon il sonra təsdiqlənəcək. Biz kainat adlandırdığımız maddəli məkanda ortaya çıxanda doğulduğumuzu zənn edirik, əslində isə bu bir az yanılmadır. Biz doğuluruq ki, hər şey yerində olsun, oyun pozulmasın. Beş duyğu orqanımızın beşi ilə də kainatın içində olduğumuzu düşünürük. "Hamımız anayıq" cümləsinin mahiyyəti belədir: Biz kainata gözlərimizi açırıq, amma yanılmamız ondan ibarətdir ki, gələn informasiya axınını yanlış başa düşürük. Biz başqa şeyik, kainat başqa. Biz kənar obyekt olduğumuz üçün işığı, maddəni, hətta qaranlığın informasiyasını beş duyğu orqanımızla alırıq və elə buna görə kainatın içində olduğumuzu düşünürük. Bu isə olduqca böyük yanılmadır. Unutmayın, beş duyğu orqanımız vasitəsilə kainatdakı informasiyanı qəbul edirik, bu doğrudur. Amma əsas sualın cavabı budur: Burada kənar nəsə yoxdur. Yəni hamımız birik, təkik. Ona görə biz kainatın içində deyilik, əksinə – kainat bizim içimizdədir.

Eynilə "Ölmədən öncə ölənlərdir diri olanlar" fikri kimi… Bir şeyi unutmamaqda fayda var: adına kainat dediyimiz şey bumeranqa bənzəyir. İnsan nə ilə nəyi ittiham edərsə, elə onunla da sınanar. Bunu bizdən başqa heç kim etmir.

Nə əkərsən, onu biçərsən. Dəyərli oxucu, əgər şablon insan personajından çıxmağa birlikdə cəhd etsək, o zaman bütün neqativlər həddi aşmadan yox olacaq. Diqqətlə ətrafımdakı insanların bir-biri ilə davranışına fikir verirəm. Onlar boşluqla mübarizə aparırlar və bu şablon insanı geri qalmağa sövq edir. Halbuki hamımız insanıq, hamımız anayıq. Lakin çoxumuz sıfıra bərabər olmağı seçmirik ki,

başlanğıcımız olan biri, yəni birliyi dərk edək. Nədir bu qalxanı deşilməyən möhkəm təkəbbür? Məgər bu sadaladıqlarım deyilmi bizi boşluqda saxlayan amil?

Hamımız nəsə olmaq istəyirik, amma anlamırıq ki, olmaq istədiyimiz şeylər bizdən sonradır. Yəni biz birik. Bizdən, yəni insandan sonra gələn hər şey bizdən sonradır. "Başlanğıc bizik, anayıq" – cümləsinin mahiyyəti budur.

İnsan yatdığı vaxt bir heç olur, yəni sıfır. Lakin yuxudan qalxdıqda nəsə olmaq istəyir. Birlikdən, başlanğıcdan sonra o, külliyatın içindəki kainat maddəsinə tabe olur, ona asılı qalır. Buna hər şeyi aid edə bilərik – alınan nəfəsi, yeyilən yeməyi, sevgini, ehtirası, əyləncəni, hətta ibadəti də…

Əslində, insanın ən böyük düşməni "mən" dediyidir. Nə qədər ki, sıfırı tapa bilməyəcəyik, sıfıra bərabər olduğumuzu da başa düşməyəcəyik. 1+1=2. Lakin biz özümüz bir başlanğıc olduğumuz üçün birdən sonra olan hər şey bizim üçün sıfırdır. Yəni qarşımıza dünyanı da sərsələr, yenə də başa qayıdacağıq və bunu etməyi bacarmalıyıq. İstəsəniz, Tanrının sevgisini də içinizdə hiss edə bilərsiniz. İstər rəqəmlərlə, istər hərflərlə.

Bilirsiniz ki, zamanımızın ən çox istifadə olunan ixtiralarından biri yaddaş kartları, yaxud flaş-kartlardır. Bunların müxtəlif tutumları var. İndi özünüz düşünün: 1 terabaytlıq yaddaş kartına yüzlərlə foto və video yükləyə bilərsiniz, yəni fiziki olaraq mövcud bildiyimiz çox şeyi onun içində saxlamaq mümkündür. 10 min il öncə mağaranın önündə oturan bir insana bu kartın içindəki hər hansı videonu göstərsəniz və onun nə olduğunu izah etməyə çalışsanız, bu ona mistika və ya möcüzə kimi görünəcək. Çünki biz raket dövründəyik, o isə daş dövründə. İndi özünüz